# Mənim istinad nöqtəm musiqidir

## Novruz Aslan: *“Məmur səmimi olanda, xalqla bağı qırılmaz olur”*



Bu, bizim onunla ikinci görüşümüzdür. Səmimiyyəti, mehribanlığı ilə hamının yaxşı tanıdığı, sevdiyi bəstəkar, millət vəkili, Qızıl Aypara Cəmiyyətinin prezidenti Novruz Aslanı budəfəki ziyarətimizin səbəbi var. Aldığı “Vətənə Xidmət Ödül”ü.

Eşidən kimi təbrik etməyə tələsdik, olduğu yer və aldığı mükafata artıqlamasilə layiq olan Novruz müəllimin gülər üzü bizim də söhbətimizə işıq saçdı. 8 Mart ərəfəsindəki söhbətimizə gülüşlə başladıq:

**- Deyirlər, Teymurləng vəzirini-vəkilini başına toplayıb məşvərət edirmiş. Elə bu əsnada qadını gəlir və Əmir ona “mənim Xanım” deyə müraciət edir. Hər kəsin təəccüblü baxışlarına isə “mən sizin, o da mənim Xanımdır” deyə cavab verir. İlk dəfə eşidəndə bu, mənə çox xoş təsir bağışlamışdı. Düşünmüşdüm ki, görün bir Türk kişisi üçün öz qadını nə qədər dəyərlidir.**

*(elə bu vaxt olan olur, mənim unutqanlığım burda da özünü büruzə verir)*

Novruz müəllim:

- Əgər yadınızdan çıxmayıbsa, bu fikirləri elə bu kabinetdə, bu masanın ətrafında sizə mən danışmışdım.

**- Nə danışırsınız?**

- Çox maraqlıdır ki, bu an dejavü baş verdi, bu otaqda, bax həmin bu yerdə elə bu söhbət açılmışdı, ona görə də məhz indi sizin yadınıza düşdü.

*(Novruz müəllim ürəkdən gülür. Mətləbə keçirik.)*

**- Novruz müəllim, Vətənə xidməti bacarmaq qeyrət məsələsidir. Vətənə xidməti bacarmaq ləyaqət məsələsidir. Nə düşünürsünüz bu mövzuda? Eyni zamanda sizi sevən hər kəsin adından xoş diləklərimizi qəbul edin...**

- Təşəkkür edirəm. Sualınız çox tutarlı və məsuliyyətli oldu. Doğrudan da Azərbaycan Qızıl Aypara Cəmiyyətində böyük bir bayram yaşanır. Cəmiyyətin hər bir üzvü bu sərəncamlarla fəxr edir. Bu, mənim təltif olunduğum ikinci ordendir, səhər iclasımızda da bu məsələ barədə danışdıq. Mən öz işçilərimə, xüsusilə də təltif olunan insanlara bu mükafatın, ölkəmiz tərəfindən, dövlətimiz tərəfindən bizə göstərilən böyük bir etimad olduğunu dedim. Bəli, bu, bizə verilən mənəvi kreditdir və qaytarmaq lazımdır. Hesab edirəm, bu təltiflər, dövlətin rəhbərinin etimadı onu göstərir ki, biz işimizdə daha şəffaf olmalıyıq, gələcəyə baxışımız daha da aydınlaşmalıdır. İşimizi daha da təkmilləşdirməliyik. Çalışacağıq ki, bu etimadı doğruldaq. Sevinc öz yerində, hər birimizi düşündürən bir məsələ var - məsuliyyət. Ölkə prezidenti bizə böyük diqqət göstərdi. Biz onun qayğısı ilə əhatə olunduğumuzu bilirdik. Bu diqqət ulu öndərimizdən - 1994-cü ildən gəlir. Hələ o vaxt milli cəmiyyət təzə yarananda ilk olaraq parlament tərəfindən humanitar təşkilat kimi tanınan məhz Qızıl Aypara Cəmiyyəti olmuşdu. Beynəlxalq Qızıl Aypara Federasiyasına daxil olaraq, oranın bərabərhüquqlu üzvü olduq. Beynəlxalq Qızıl Xaç komitəsi ilə tərəfdaş olduq. Təbii ki, öz tarixi ənənələrimizi yaşadarkən iztirab çəkənlərin, həssas adamların da daim yanında olduq. Bizim işimiz bundan ibarətdir və işimizlə fəxr edirik. Bu gün bizə verilən bu ödül Qızıl Aypara Cəmiyyətinin üç yüz mindən çox üzvünə, iyirmi mindən çox könüllüsünə verilib. Bu bayram ərəfəsində yenə də iş başındayıq. Cəmi bir neçə gün əvvəl qan vermişik. Çox şadam ki, jurnalistlər də, millət vəkilləri də bizim aksiyamıza qoşuldular. Bilirsinizmi, mən bu qanvermə aksiyalarına böyük önəm verirəm. Bunun bir reklam olduğunu düşünə bilərlər, amma məqsədimiz heç vaxt reklam olmayıb. Niyyətimiz yardım etməkdir. O qana ehtiyacı olan, hemofiliya və talassemiya xəstəliyindən əziyyət çəkən, verdiyimiz qanla yaşayanlar var. Bizim səhiyyə ocaqlarında minlərlə insan əməliyyat olunur, qəfil hadisələr baş verir, insanların həyatını xilas eləmək lazımdır. Donoru heç də hər an, hər dəqiqə tapmaq mümkün deyil. Qan bankı olmalıdır və orada ehtiyatda qan saxlanılmalıdır.

**- Novruz müəllim, nəyi eləmisiniz, nə qalıb?**

- Nəyi eləmişik, bu, artıq qaldı keçmişdə. Bugünkü gündə bizi düşündürən, nə edəcəyik, sualıdır. Əsas meyar budur. Təbii ki, keçmişi də yaddan çıxarmaq olmaz. Nəticə etibarilə ona əsaslanıb hansı yolun daha düzgün olduğunu müəyyənləşdirirsən. Məni sevindirən bir həqiqət var, heç vaxt yolumuzun düz olduğuna şübhə etməmişik. Yenə də daha yaxşı edə bilərdik deyə düşünürəm. Daha böyük uğurlara imza ata bilərdik. Gördüyümüz işlər də təqdirəlayiqdir. Ötən müsahibəmizdə mən sizə qan donorluğu layihəmizdən bəhs etmişdim. Onda yardım etdiyimiz iki ölkənin adını çəkmişdim amma artıq bu ölkələrin sayı altıya çatıb.

**- Səhv eləmirəmsə, biri Türkiyə idi...**

- Biri də Somali. Sonradan Türkiyəyə, Ukraynaya, İrana, Somaliyə, eləcə də Suriya qaçqınlarına yardım etdik. Kampaniyalarımızın sayı artdı, ənənəni davam etdirdik və artıq beynəlxalq aləmdə ilk dəfə olaraq donor ölkə kimi, milli cəmiyyət kimi tanındıq. Bunu MDB məkanında heç bir ölkənin heç bir cəmiyyəti deyə bilməz, çünki bu, məhz Azərbaycana məxsusdur. Siz bizim bülletenlərdə yardım edən ölkələrin siyahısına baxsanız görəcəksiniz ki, öndə Azərbaycan, yanında Amerika, ərəb ölkələri gədir. Biz adıçəkilən ölkələrdə yaranan problemlərə biganə qalmadıq, hərəkata öz sadiqliyimizi göstərdik. Ənənəvi fundamental prinsiplərimizə sadiq olduq. Beynəlxalq aləmdə bir daha Azərbaycanı tanıtdıq. Siz təsəvvürünüzə gətirin ki, 1922-ci ildə Qızıl Aypara Cəmiyyətinə aid olan cəmi bir sərəncam vardısa, bu gün təkcə cənab prezidentin haqqımızda yeddi sərəncamı var. Bu, dünyanın heç bir yerində yoxdur. Hələ mən o sərəncamlardan irəli gələn Nazirlər Kabinetinin qəbul etdiyi qərarları demirəm, Milli Məclisdə qəbul olunan qanundan bəhs etmirəm.

Görürsünüz, dövlətin Qızıl Aypara Cəmiyyətinə necə böyük qayğısı var.

Fürsətdən istifadə edib qəzetiniz vasitəsilə bütün ayparaçılar adından cənab prezidentə minnətdarlığımızı bildirirəm. Cənab prezidenti əmin edə bilərik ki, ulu öndər tərəfindən Qızıl Aypara Cəmiyyətinin inkişafına tövsiyə olunan siyasəti bu gün də davam etdirəcəyik. Azərbaycan Qızıl Aypara Cəmiyyəti öndə olub, var və bundan sora da həmişə öndə olacaq. Biz heç vaxt arxada gedə bilmərik. Çünki ölkəmiz öndədir.

**- Rəhbəri siz olduğunuz müddətcə buna əminəm...**

- Təşəkkür edirəm, mən bütün ölkəm adına dedim. Azərbaycan həmişə öndə olmalıdır. O nə qədər irəlidə olsa, inkişaf eləsə dövlətin hər bir strukturu da inkişaf edəcək. Keçmiş Sovetski küçələrindəki söküntüyə baxın. Bu, yaxşı hal, deyilmi? O evlər, o küçələr bizim gözəl Bakımıza yaraşmırdı. İqtisadiyyatımız günü-gündən çiçəklənərkən əmin olun, strukturlar da inkişaf edəcək. Güclü ölkənin zəif təşkilatı ola bilməz. Əgər o təşkilat zəifdirsə, demək onun rəhbəri yerində deyil.

**- Yorulmursunuz ki?**

- Əlbəttə, yoruluram. Amma bu, insandan insana dəyişir. Pozitivlik hər zaman lazımdır.

**- Bütün bu hadisələrin fonunda ailə hardadır?**

- Ailə... Başdadır.

**- Vaxt ayıra bilirsinizmi?**

- Özümün-özümdən umacağım var. Eləcə də ailəmin. Sadəcə, fərqindədirlər ki, bu vəzifələrin daşıyıcısı kimi mən öz öhdəmə düşəni etməliyəm. İnsan məhdudiyyətlər içindədir. Sizə sağlıq, bir neçə gün bundan əvvəl möhkəm xəstələnmişdim. Bircə gün yataqda yatmağa ehtiyacım ola-ola, onu belə yaşaya bilmədim. O tədbir, bu görüş... heç cür imkan olmadı.

**- Yaradıcılıqda nə var nə yox?**

- Bir az durğunluq var, amma pis deyil. Həmişəki kimi sosial mövzulardan uzaqlaşmamışam. Musiqisi mənə, sözləri Hadı Rəcəbliyə aid olan “Unutmayaq” adlı yeni bir layihəmiz var. Sosial mesaj verir, yaşlı insanlara, qocalara diqqəti ön plana çəkir. İfaçısı respublikanın əməkdar artisti Lalə Məmmədovadır.

Sevgi-məhəbbət mövzusunda həmişə olduğu kimi bir az kənarda qalmışam, hesab edirəm ki, cəmiyyətə ismarıclar göndərmək daha ümdə məsələ olmalıdır. Biz öz davranışımızla, danışığımızla, səmimiyyətimizlə cəmiyyətə ismarıc verməliyik.

**- Məmur səmimiyyəti varmı?**

- Sualınız çox yerindədir. Bilirsinizmi, bəzən dövlət məmurları elə hesab edir ki, səmimiyyət onların işində mənfi qiymətləndirilə bilər. Mən belə düşünmürəm. Məmur səmimi olanda xalqla bağı qırılmaz olur. Məmur xalqa xidmət edir. İnsanlar o səmimiyyəti hiss etməsələr, ona inanmayacaqlar. Vəzifə məsuliyyətdir, öhdəlikdir. Təkcə yaxşı şərait, yaxşı kabinet, yaxşı imkanlar demək deyil. Xidmət etməli, düzgün qərarlar qəbul etməlisən. Vəzifən artdıqca sənin qərar vermə imkanların çoxalır və səlis olmalısan ki, şaxələnmə baş verəndə problem yaşanmasın.

**- Bu qədər gərginliyin arasında azadlığınız hardadır?**

- Gördüyün işin xoş bəhrəsində. Azadlıq da ordadır, istirahət də. Cənab prezidentin verdiyi bu sərəncam, bütün çətinliklərimizi unutdurdu. Cəmiyyət olaraq yenidən doğulduq, yeniləndik.

**- Novruz müəllim, mənəvi qidanı haradan alırsınız?**

- Musiqidən. Mənim istinad nöqtəm musiqidir. İmkan tapan kimi dinləməyə çalışıram. Azərbaycanda müasir musiqidə inkişaf yoxdur fikri ilə qətiyyən razı deyiləm. İnkişaf var. Bəlkə də biz görmürük.

**- Niyə mənə elə gəlir ki, siz sufi musiqini sevirsiniz?**

- Yəqin ki, mənəvi uzlaşma var. Çünki musiqinin özündə bir fəlsəfə var, hər adam onu başa düşə bilmir. Mən demirəm aludəçisiyəm, ya da xəstəsiyəm, yox, sadəcə, maraqla qulaq asıram. Hesab edirəm ki, düşündürücü musiqidir və musiqi əgər düşündürürsə, zəif ola bilməz.

**- Olmaq istədiyiniz yer haradır?**

- Olmaq istədiyim yerdəyəm, aza qane olan adamam. Biz istəsək belə, Yaradanımız məsləhət görəcəkmi? Məsələ budur. Niyyətin hara, mənzilin də ora, deyiblər. Niyyətin xoşdursa, çatacaqsan. Amma zəhmət çəkməlisən, işləməlisən. İnsanlığın ən böyük bəlası tənbəllikdir. Arzulara çatmaqda məhdudiyyət qoyur.

**- Novruz bəy, sizi bir daha təbrik edib, oxucularımıza son sözünüzü eşitmək istəyirik...**

- Sizə uğurlar və müvəffəqiyyətlər arzu edirəm. Başda Sona xanım olmaqla “Kaspi” qəzetinin, ailəsinin hər bir üzvünə mənim salamlarımı çatdırın. İnanıram ki, tarixi ənənələri yaşadan və davam elətdirən “Kaspi” ailəsinin uğurları nəticə olaraq bizim cəmiyyətimizə sirayət edib, gənclərimizin formalaşmasında, oxucularımızın mənəvi dəyərlərinin zənginləşməsində, ölkəmizin inkişafına yönələn addımlarda bizə yardımçı olacaq.

**Nigar İsfəndiyarqızı**